# XX əsrin əvvəllərində milli məktəb quruculuğu və ana dilinin tədrisi məsələləri

**Sevinc Kərimova**

**Müəllif:**
Sevinc Kərimova — ADPU, «Pedaqoji təhsilin problemləri» elmi-tədqiqat laboratoriyasının kiçik elmi işçisi. Azərbaycan, Bakı.
E-mail: sevinc-kerimova@bk.ru

**Annotasiya.** Məqalədə Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcılarından olan siyasətçi, publisist, dövlət xadimi M.Ə.Rəsulzadənin təhsil və məktəblə bağlı fikirlərinin müəyyən aktual məqamları aydınlaşdırılmışdır. M.Ə.Rəsulzadəyə görə, Azərbaycan övladları və gəncləri üçün milli dildə, milli ruhda, xalqın dini inancalarına uyğun, dünyəvi elmlərin, tarixin tədris edilə biləcəyi təhsil müəssisələri yaradılmalıdır. Bu məqsədə çatmaq üçün nümunəvi proqramlar tərtib etmək və onları tətbiq edəcək müəllim heyəti hazırlamaq lazımdır. M.Ə.Rəsulzadə məqalələrində dövrünün bütün siyasi proseslərinin təhsilə, xüsusilə Azərbaycan müsəlmanları üçün tərtib və tətbiq edilən təhsilə təsir etdiyini qeyd edirdi. İmperialist maraqlar üzərində qurulan bu siyasəti ağlasığmaz dərəcədə ədalətsiz və məntiqsiz sayırdı. Mütəfəkkirin məqalələrini oxuduqca bir daha əmin olursan ki, onu zamanın siyasi çaxnaşmaları deyil, bu siyasi oyunlarda qurbana çevrilən millətinin gələcəyi, təhsili, elmi inkişafı, dili və milli-mənəvi dəyərlərinin qorunması daha çox narahat edir, hər an həlli yolunu axtarırdı. O, beynəlmiləl və demokratik, elmin və təhsilin köməyi ilə inkişaf etmiş, dini inanclarını mövhumatdan uzaq məntiqlə dərk edərək yaşaya bilən müstəqil bir ölkənin, azad bir millətin varolma həqiqəti uğrunda mübarizə aparırdı.

**Açar sözlər:**
Milli məktəb, təlim, tərbiyə, təhsil, pedaqoji proses, təhsilin məzmunu.

**DOI:** 10.32906/AJES/683.2018.02.20

**Məqaləyə istinad:** Kərimova S. (2018) *XX əsrin əvvəllərində milli məktəb quruculuğu və ana dilinin tədrisi məsələləri.* «Azərbaycan məktəbi». № 3 (684), səh. 129–138

**Məqalə tarixçəsi**
Göndərilib: 08.06.2018; Qəbul edilib: 16.08.2018

# Establihsing of National school and native language teaching issues at the beginning of the 20th century

**Sevinj Kerimova**

**Author:**
Sevinj Kerimova,
ADPU, Junior Researcher,
Research Institute
«Problems of Teacher
Education». E-mail:
sevinc-kerimova@bk.ru

**Keywords:**
National school, training, manners, education, pedagogical process, content of education.

**Abstract.** The article analyzes the actual moments of the opinion of the politician, publicist, public and public figure of the Azerbaijan Democratic Republic M.A.Rasulzadeh on education and school. According to M.A.Rasulzadeh, Azerbaijani youth should be established in national language, national spirit, in accordance with the religious beliefs of the people, educational institutions where secular sciences can be taught. To achieve this goal, you need to create good programs and teachers who can apply these programs. In his articles, Rasulzade noted that all political processes of the period influenced the education, especially the education and training applied to Azerbaijani Muslims. This policy, based on imperialist interests, was ignorantly unfair and illogical. As you read the writer's articles, you will again be sure that it is not the political panic of time, but the future of the nation that has become a victim of political games, its education, scientific development, language and national-moral values. As you read his articles, you see the truth of the existence of an independent nation, an independent nation capable of living internationally and with the help of democratic, science and education, with a logical perception of its religious beliefs.

**DOI:** 10.32906/AJES/683.2018.02.20

**To cite this article:** Kerimova S. (2018) *Establihsing of National school and native language teaching issues at the beginning of the 20th century.* Azerbaijan Journal of Educational Studies. Vol. 684, Issue III, pp. 129–138

**Article history**
Received: 08.06.2018; Accepted: 16.08.2018

1918-ci il mayın 28-də müsəlman şərqində ilk müstəqil demokratik dövlət — Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından biri olan siyasətçi, publisist, dövlət xadimi M.Ə.Rəsulzadənin təhsil və məktəblə bağlı publisistik yazıları vasitəsilə müəyyən aktual məqamları aydınlaşdırmaq təhsilimizin qarşısında duran vəzifələrdəndir. Onun məqalələrinin məzmununu ümumiləşdirən zaman görürük ki, o, dövrünün təhsil sistemini mükəmməl bilir, çatışmazlıqları aydın görür, xalqın nicatı üçün onların həlli yollarını axtarır, vətənpərvər bir ziyalı kimi təhlil və fikirlərini kəskin senzuranın hökm sürdüyü bir rejimdə aşkarlamaqdan çəkinmirdi.

Mütəfəkkir «Məktəb və mədrəsə» başlıqlı silsilə məqalələrində qeyd edir ki, Rusiyada müsəlmanlar təhsili məscid yanında fəaliyyət göstərən elm ocaqlarında — məscid məktəblərində alırlar. Bu məktəb və mədrəsələr ümummaarif nəzarətindən xaric müstəqil və milli məktəb sayılsa da, burada tədris olunacaq dərslər rəsmi cəhətdən olduqca məhdud bir çərçivə içərisindədir. Burada ancaq ana dili ilə şəriət dərsi, quran təlavəti, mədrəsələrdə isə üləma və ruhanilərə lazım olan farsca, ərəbcə və ümumi-ilahiyyə oxunulur, başqa dərslərin tədrisinə isə hökumət tərəfindən icazə yoxdur. Bu nöqsanlara baxmayaraq, məscid məktəblərinin üstünlüyü ondadır ki, o ən təbii milli məktəbdir.

Publisist dövrün məktəblərinin fəaliyyət strukturunu, məzmununu, forma və xarakterini aydın təhlil edir, «verilən təhsilin son nəticəsi nə olacaq» — sualından çıxış edərək məktəblər qarşısında duran məqsəd və vəzifələri məntiqi şəkildə izah edir, onları qruplaşdırır, burada tətbiq edilən mövcud təlim üsullarını dövrün tələbləri baxımından aydınlaşdırırdı. O, dövlət, millət və məktəb anlayışlarının ziddiyyətli və qarşılıqlı fəaliyyətlərindən doğacaq nəticələrin sonda xalqa necə təsir edəcəyini öncədən görür, yarana biləcək və yaxud təxmin olunan problemlərin həlli yollarını göstərirdi.

M.Ə. Rəsulzadə Petroqradda maarif müdirlərinin müşavirəsində qarşıya qoyulmuş həlli vacib olan problemlər içərisində hətta qeyri-rus olan məktəblərə əhəmiyyət verilməsi, bu məktəblərdə təlim dilinin əhalinin ana dilinə uyğun qəbul edilməsi, müsəlman məktəb və mədrəsələrində tədrislə bağlı zamanın tələbinə uyğun islahatların aparılması ilə bağlı yazırdı: «Nə qədər ki, Petroqrad ali məclisində imansız və mərhəmətsiz «həqiqi rus millətçiliyi» hakim və nüfuzlu idi, elmi və maariflə bərabər qeyri-rus millətlərin dili ilə, dini də sıxışdırılmışdı. Xalqın maarif və elminə geniş bir hürriyyət təmin edən nəzəriyyə Petroqrada hakim olunca, «rus darülfünunları, rus ədadiləri, rus ibtidailəri» ilə bərabər, qeyri-rus milli məktəbləri də onları sıxmaqda olan məngənənin boşaldığını hiss etmişlərdir» [M.Ə.Rəsulzadə. 1915].

Böyük mütəfəkkir qeyd edir ki, maarif naziri İqnatyev «tam maarif baharını vücuda gətirəcək gül olmasa da», hər gün keçirilən maarif müdirlərinin müşavirəsi, coğrafiya müəllimlərinin, ictimai tarixşünaslar və tarix müəllimlərinin yığıncağı kimi elm və maarif fəaliyyətləri əvvəlki nazirin yalançı vədlərindən qurtarmağımıza bir dəlildir. Avropa təhsili almış, tərbiyə və idarəetmə tərzi ilə tərəqqipərvər şəxs kimi tanınan yeni maarif nazirinin rəyasəti altında Petroqradda keçirilən maarif müdirlərinin müşavirəsi zamanı müzakirəyə qoyulmuş maddələrin arasında qeyri-rus olan millətlərin də məktəb və maarif işlərinə əhəmiyyət verilməsi və bu məktəblərdə təlim dili olaraq ana dilinin qəbul edilməsi məsələsi qaldırılmışdır. Müsəlman məktəb və mədrəsələrindəki tədrisin zəmanəyə uyğun bir şəkildə islah edilib, Rusiyanın digər məktəblərində olan məlum bir nizam və qayda altına alınmasının vacibliyi danışılmışdı. Bu hadisə həmin vaxta qədər milli məktəblər açmaq uğrunda qarşıya çıxan sədləri dağıtmağa az-çox ümid verir və milli məktəblər yaratmaq uğrunda yeni təşəbbüslərə təhrik edirdi. Bu da aydındır ki, qeyri-rus millətlərin maarif və milli ehtiyacları ancaq rus maarif idarəsi və mühüm idarə hökumətlərinin başında tərəqqipərvər şəxslər olduqları zaman nəzərə alınaraq onlar üçün nəsə etmək mümkün olur.

Publisist məqalələrində təhsil verən

müəssisələrin idarəedilmə və maliyyələşmə problemləri bir yana tədris proqramları, təlim üsulları və xalqa xidmət baxımından kəsb etdikləri mahiyyəti ilə bağlı daha geniş təhlillər aparırdı. Ümumi təhlillərə diqqət edən zaman dövrün təhsil tiplərini — ibtidai, ibtidai ali, mədrəsə, darülmüəllimin kimi pillələrə bölündüyünü görürük.

1. **Darülmüəllimin** (seminariyalar) — Milli məktəblər üçün müəllim və mürəbbilər yetişdirən, hökumət tərəfindən təsis olunan müəssisə. Qori seminariyası və İrəvan darülmüəllimini bu qəbildən olan təhsil müəssisələri idi.

Mütəfəkkir yazırdı ki, darülmüəlliminləri qurtaran seminaristlər yoxlanılarsa, onların milli məktəb müəllimi ola bilmələrinin çətin olacağı hiss olunur. Həqiqi millət müəllimi o kəslər ola bilər ki, onlar türkcədən — ana dilindən az-çox məlumatlı və müsəlman həyatına və düşüncəsinə bir az da olsa, bələd olsun. Bu səbəbdən də seminaristlərdən şikayətlərin olması başqa bir dərd olaraq qalır.

2. **Rus-müsəlman məktəbləri** (edadi və ibtidai məktəblər) – Xalq məktəbləri. Müsəlman camaatı arasında ibtidai təhsili vermək üçün təsis olunmuşdur.

M.Ə.Rəsulzadənin düşüncəsinə görə, bu məktəblər xalqa iki istiqamətdə bilik verməli idi:

1) Dövlət dilinin təlimi — vətəndaşlıq hissinin tərbiyəsi. Müəllimlərin yalnız uşaqlarla deyil, onların valideynləri ilə də daim görüşərək onların dərdlərinə şərik olması

2) Milli dilin tədrisi — milliyyət və din sevgisinin təlqini.

Belə bir məktəb üçün müəllimin yalnız yeni qaydalara və təlim üsullarına sahiblənməsi yetərli deyildir. Bu müəllimlər öz şagirdlərini ölkəsini, millətini, dilini və dinini sevən, eyni zamanda vətəndaşı olduğu dövlətə qarşı yad olmayacaq insanlar kimi hazırlamalıdırlar. Qısacası müsəlmanlara məxsus olan ibtidai məktəblər mədəni bir həyatın üç dayaq sütunu — milliyyət, dəyanət və məişət əsaslarını — möhkəmləndirən tərbiyə və təlimlərə qadir olmalıdırlar. Dil və dini kamil şəkildə qavramalı, bu iki amilin keçirmiş olduğu tarix və ənənəni də olduğu kimi bilməlidirlər. Yoxsa öz millətinin dini ehtiyacından bixəbər, öz dilinə, sadə xalqın ədəb və yaşayışına yad bir müəllimdə nə milli hiss olar, nə də belə bir müəllim şagirdlərinə arzu olunan milli tərbiyəni verə bilər [M.Ə.Rəsulzadə. 1915].

Mütəfəkkir xalqın inkişafı üçün ibtidai məktəblərin artması və burada tədrisin mümkün olduqca xalqın ruh və adətinə uyğun qurulmasını vacib sayırdı. O, ibtidai məktəblərin artması və milliləşməsini xalqın ehtiyaclarından birincisi hesab edirdi. Bu məktəblərdə proqramların yenidən hazırlanıb yayılmasını, xalqa bağlı və camaat arasında hörməti olan müxtəlif cəmiyyətlərlə əlaqələr yaradılmasını istəyirdi [M. Ə. Rəsulzadə. 1915].

3. **«Əli» və «Ömər» adlı ibtidai məktəblər** — hökumət tərəfindən Tiflisdə açılmış Şeyxülislam və Müfti yönlü məscid məktəbləri.

Publisist çəkinmədən bu məktəblərin mənfi tərəfinin yalnız tədrisin zəif və milləti inkişafdan çox cəhalətə çəkməsi deyil, həmçinin eyni dil, din və qan birliyi olan bütöv bir xalqı parçalamaq məqsədi güddüyünü yazırdı.

4. **Klassik məktəblər** — məscidə tabe məktəb və mədrəsələr.

M.Ə.Rəsulzadə mövcud təhsili təhlil edərək milli məktəblərin bir millət üçün daha yararlı olduğunu, o dövrün təhsil ocaqlarından isə az-çox məscid nəzdində olan məktəb və mədrəsələrin milli məktəb sayıla biləcəyini, burada isə təhsilin məzmun və üsul nöqteyi-nəzərindən çox köhnəldiyini, islahatlara ehtiyac olduğunu təəssüf hissi ilə bildirirdi. «Biz məscid məktəb və mədrəsələrinə xor baxdıq. Onları zəlalət və ətalət yuvası sandıq. Burada millət çürüdülür dedik, buralarına təəssüb ocağıdır ünvanını takdıq. Həm həqiqətən də, öylə idi. Fəqət biz bir şeyi unutduq ki, bu müəssisələr hər nə halda olsalar da, bizimdir. Məscid məktəb və mədrəsələrinə şimallı qardaşlarımız (tatarlar) bizdən daha ciddi bir nəzərlə baxdılar. Onlar bu müəssisələrə qarşı xor baxmadılar. Biləks bu məktəblərə sarıldılar, uzun bir zaman oldu ki, tatarlar, hətta rus şkolasını belə baykot etdilər. Haman məktəb

və mədrəsələrə qane oldular. Nəhayət, tamam olmasa da, bu məktəblərə üsuli-cədid daxil oldu. Ana dilinin və sair ibtidai elmlərin təhsili bir çox məktəblərə girdirildi» [M.Ə.Rəsulzadə. 1916].

Publisist mövcud hakimiyyətin «pantürkizm» adı ilə anadilli məktəblərinin inkişafına yalnız sözdə əməl etdiklərini, həqiqi icranın olmamasını tənqid edir və bütün yerli maarif cəmiyyətlərinin fəaliyyəti daxilində hakimiyyət tərəfindən ya İranpərəst, ya da Osmanlı türkpərəstliyində ittiham edildiyini yersiz sayırdı. «Osmanlı şivəsi ilə bizim şivə arasındakı oxşarlığı görüb qorxanlar bu iki şivənin bir dilin biri-birinə yaxın şöbələri olduğunu bilməyənlərdir», — deyirdi.

Məktəblərin islahı nə üçün xəyal olmalıdır. Məgər hakim orqanlar sözdə hər zaman bunu demirlərmi? Əsrlərdən bəri kağız üzərində qalan haqqımızdan istifadə etmək istəyi niyə «xülya» hesab olunmalıdır? Məktəb və mədrəsələrin «xilafə dövrünə» aid üsulundan qurtarıb yeni formada qurulmasını istəmirlərmi? [M.Ə.Rəsulzadə. 1916].

M.Ə.Rəsulzadə tədrisin ana dilində keçirilməsinə hakim orqanlar tərəfindən icazə verilmədiyini, bunu türkləşdirmə siyasəti ilə bağlayan, bütün Zaqafqaziya və Dağıstanda yaşayan müsəlmanlar üçün tədrisin ana dilində olmasını qadağan edən qanunları haqsız və yersiz sayırdı. Onun fikrincə, maarif işlərində hakim şəxslər öz iddialarında məkrli mövqe tuturdular, çünki bütün Zaqafqaziya və Dağıstanda ümumi xalq dili Azərbaycan türkcəsi olduğu üçün tədrisin bu dildə aparılması burada yaşayan bütün xalqlar üçün daha uyğun sayılır. Bu, heç bir məcburiyyət daxilində deyil, bu ərazidə yaşayanların təbii ehtiyaclarından əmələ gəlir. Rəsulzadə yazırdı, ki, Dağıstan bir çox xırda qövmlərdən, xırda şivələrdən yaranmış bir dil kəşkülüdür. Burada bir kənd o biri kəndin dilini anlaya bilmir. Bu ümumi anlaşılmazlıqlar arasında türkcənin hər kəs üçün «beynəlmiləl» bir dil olduğunu da bilməyən yoxdur. Çünki dağıstanlılar yaxşı bilirlər ki, türkcəni deyilsə də, ruscanı qəbul etməlidirlər. Halbuki türklər müsəlman olduqlarından türkcəni (Azərbaycan dilini) qəbul etmək onlara daha təbii, daha rahat görünür [M.Ə.Rəsulzadə. 1916].

Publisist maarif müdirinin məruzələrinə istinadən bu məktəb və mədrəsələrdə keçiriləcək şəriət dərslərinin ərəbcə tədrisinə qərar verilməsini olduqca gülünc və məntiqsiz sayırdı. O dönə-dönə yazırdı ki, maarif müdiri cavabdeh şəxs kimi Azərbaycanda milli təhsilin inkişafını düşünmür, hər vəchlə yalnız Çar Rusiyasının imperialist mövqeyindən çıxış edərək xalqın, millətin tərəqqi etməsinə mane olur. Lakin hər millətin öz kötüyü üzərində göyərib də doğma mədəniyyəti ilə inkişaf etməsinə imkan verilərsə, şübhəsiz ki, daha geniş milli tələblər bir «xülya» kimi nəzərə gəlməz.

Dil – milli təfəkkürün, milli inkişafın və milli özünütəsdiqin mütləq, əvəzedilməz və qarşısıalınmaz amilidir. Müstəmləkə bir dövlətdə bu amili sıradan çıxartmaq üçün ilk siyasi oyun hər zaman təhsil üzərində aparılır. Rəsulzadə məqalələrində bunu, təhsilin təşkil edildiyi dilin həmin bölgədə aparılan imperialist siyasətin bir parçası olduğunu dönə-dönə, bəzən aşkar, bəzən isə eyhamlı şəkildə yazırdı.

5. **Hökumətin açmaq istədiyi yeni məktəblər:**

1) Bakıda bir darülmüəllimin — məktəblər üçün müəllim və mürəbbilər yetişdirəcək;

2) «Əli» və «Ömər» ali ibtidai məktəb – eyni adlı ibtidai məktəblər ali ibtidai məktəblər səviyyəsində olacaq və əlavə olaraq müəllimlik və mollalıq kursları artırılaraq «işıqlı molla» yetişdiriləcək.

Rəsulzadə yazırdı ki, xalqa açıqlanan bu islahata görə Tiflisdə fəaliyyət göstərən «Əli» və «Ömər» tipli məscid məktəbləri təkmilləşdirilərək mədrəsə səviyyəsinə gətiriləcək və bu xüsusi məktəblərdə dərslər üç dildə — rusca, ərəbcə və türkcə aparılacaqdır. Ümumi dərslərin hamısı rusca, şəriət və şəriətə mənsub olan elmlərin hamısı ərəbcə oxudulacaqdı. O, «Varsın ruscadan başqa bütün ümumi dərslərin dəxi türkcə oxutdurulması hələlik məhal bir arzu olsun. Şəriətin ərəbcə oxutdurulmasına

nə deyəlim. Əcəba, şəriət dərsi türkcə oxutduruluyorsa, «fıkri-səltənət»ə zidd bir hərəkətmi görülmüş olur?»,- deyərək türklərə molla və müəllim hazırlayacaq olan bu məktəbdə türk dilinin Realnı ilə gimnaziyalarda fransızca, yaxud almanca öyrədilən dərs kimi öyrədiləcəyini, bunun isə təkcə Dağıstan müsəlmanları üçün deyil, Azərbaycan türkləri üçün də doğma ana dillərindən mümkün olduqca uzaqlaşdırılmaq məqsədinə xidmət etdiyini xalqın diqqətinə çatdırırdı.

Madam ki, məktəb proqramında ərəbcənin oxutdurulması var, bir sıra ayin dualarının ərəbcə əzbərlətdirilməsinə kimsə bir söz deyə bilməz. Belə olan halda ərəbcə olan dini-mərasim dualarını xüsusi öyrətməyə də ehtiyac qalmaz. Ancaq məsələn — fıqh, kəlam, təvsir kimi elmlərin ərəbcə oxutdurulmasında nə kimi bir hikmət ola bilər? Bu dərsləri ərəbcə oxutdurub da türklərə türkcə, dağıstanlılara isə rusca tərcümə etməkdənsə, həmən birdəfəlik türkcə öyrətmək mümkündür və lazımdır. «Əli və Ömər» məktəblərinə daxil olan qeyri-türk (yəni dağıstanlı) müsəlmanlara şəriət dərsi türkcə deyil, rusca tərcümə olunacaq. Təsəvvür edin, müəllim «fiqh»dən bir mətləbi ərəbcə söyləyəcək (sinifdəki 40 tələbədən 30-u türk, 10-u ləzgi, asetin və çeçendir), sonra dönüb bunu türkcəyə tərcümə edəcək, bir də dönüb rusca çevirəcək. Bunun üçün, əvvəla, bir müəllim tapmaq lazım gələcək ki, ümumi şəriyyədən kamil olsun, eyni zamanda da ərəbcə, türkcə və ruscanı gözəl bilsin [M.Ə.Rəsulzadə. 1916].

Bu məqamda M.Ə.Rəsulzadə baş verənləri tənqidi bir dillə qələmə alan bir cəsarətli publisist deyil, həmçinin siyasi qarışıqlıq içərisində verilən hər bir qərarın, tətbiqi nəzərdə tutulan hər bir layihənin «imperalist» məqsədini dərk edərək, bunların xalqın gələcəyinə necə təsir edəcəyini xalqına çatdıran ziyalı kimi mətbuatda çıxış edirdi. Təsadüfi deyil ki, onun yazılarının müəyyən hissəsi bir qayda olaraq mətbu orqanlarda senzuradan keçmir, kəsilib çıxarılırdı.

Publisist olduqca məntiqli bir sual verirdi: Nə üçün çar Rusiyası dildə birlik və bütövlük axtarırkən bir millətin məktəbini «Əli» və «Ömər» (Şeyxülislam və Müfti məktəbləri) olaraq iki qrupa ayırır? Həm də üstəlik çoxdan bəri Tiflisdə mövcud olan bu Şeyxülislam və Müfti məktəblərinin, yəni «Əli» və «Ömər» məzhəbli məktəblərin ali ibtidai məktəb halına qoyulması planlaşdırılır? Məqalədə yazılır ki, biz Zaqafqaziya müsəlmanları hamımız az bir istisna ilə bir qövümdən gəlmiş, tam birlik və mədəniyyət içərisində yaşamaq istəyən xalqıq və bizi bu birliyə yaxınlaşdıran hər vasitəni əldə etməyə hazırıq. Müsəlmanların aralarındakı məzhəb ixtilaflarını qaldırıb tabe millətləri birləşdirməklə dövlətə heç bir zərər toxunmaz, əksinə onun böyük faydasını görərlər.

6. **Milli darülmüəlliminlər** (seminariyalar) və milli məktəblər — Azərbaycan ziyalıları və vətənpərvərləri tərəfindən hər zaman arzu olunan və yaradılması üçün aramsız təşəbbüslər edilən, müəyyən proqramlar çərçivəsində hazırlanaraq hökumətə təqdim olunan məktəblərdir.

Bu məktəblər Azərbaycan ziyalıları tərəfindən xəyalı qurulan milli təhsil — Azərbaycan övladlarına və gənclərinə milli dildə, milli ruhda, xalqın dini inanclarını savadlı şəkildə bilən müəllimlərə malik, dünyəvi elmlərin və tarixin tədris edilə biləcəyi ali və ibtidai təhsil müəssisələridir. Bu məqsədə çatmaq üçün isə gözəl proqramlar tərtib etmək və bu proqramları tətbiq edəcək ustadlar, idarə və müəllim heyəti lazımdır. Rəsulzadə milli məktəblər və darülmüəlliminlər haqqında düşünülən proqramın reallaşdırılması üçün layiqli ziyalıların və gərəkən vəsaitin tapılmasının mümkün olduğunu qeyd edir. Yetər ki, hökumət tərəfindən qarşıya maneələr və əngəllər çıxarmasınlar.

M.Ə.Rəsulzadə əsrin əvvəlində Çar Rusiyasının özünü guya hürriyyət və elm tərəfdarı olan bir cəmiyyət kimi göstərməyə çalışdığını, lakin iş görülən zaman anlaşılmaz fikirlər və qərarlar bəyan etdiyini yazırdı. O, burada yaşayan müsəlmanlar arasında hər vəchlə milli düşüncə, milli dil və inkişafa təkan verəcək təhsilin yayılmasına mane olunduğunu

təkrar-təkrar dilə gətirirdi. Bakıda fəaliyyət göstərən müsəlman məarif cəmiyyətlərinin milli məktəb və təhsil haqqında bütün istək və arzularına rişxənd edilir, Ruhani «Səadət» cəmiyyətinin hazırladığı nizamnamənin Böyük Qafqasiya əyalətinin maarif müdiri Rudolf cənabları tərəfindən qəbul edilməyən və «qorxunc xülya» adlandırılaraq ictimaiyyətə çatıdırılmayan müddəaları və təkliflərinin: Məsələn, «1) cəmiyyətin ümdə qəsdi Bakı şəhərində vaqe olan mədrəsələri üsuli-cədid üzrə nizama salmaqdır; 2) müqtəzai-zəmanə görə tazə mədarisi-ruhaniyyə, darülmüəllimin və sair məktəbi-aliyə təsis və ümarət etməkdir» və s.) heç də reallaşması mümkün olmayan qorxunc xülya olmadığını yazırdı.

M.Ə.Rəsulzadə yazırdı:

«Fəqət müsəlmanlar, ruhani mədrəsələrə, akademilərə və sair milli məktəblərə bir xəyal kibi baxamaz. Onlar qonşuları ermənilərdə görüyorlar ki, təqribən bir əsr bundan əvvəl mövcud olan kəlisa məktəblərində şəriət ermənicə, rusca, ümumi tarix, ziraət, tarixi-təbii, erməni tarixi oxunuyor. Bu dərslərdən yalnız Rusiya tarixi ilə coğrafiyası rus dilində təlim ediliyor, qalan dərslərin hamısı, hətta ümumi tarix də haman erməni dili ilə oxutuluyor! Bu məktəblərin hər türlü idarələri, müəllimləri də öz ixtiyarlarında, kəlisa məhləsinin ixtiyarındadır.

Müsəlmanlar bir «xəyal» degil, bir həqiqət olaraq görüyorlar ki, qonşularının ibtidai kəlisa məktəblərindən savayı 6 yerdə ruhani darülmüəlliminləri var:

1. İrəvanda 175 il əvvəl açılmış;
2. Şuşada 55 il əvvəl açılmış;
3. Tiflisdə 95 il əvvəl açılmış;
4. Naxçıvan Donda[1] 35 il əvvəl açılmış;
5. Şamaxıda keçən il açılmış;
6. Astarxanda dəxi vardır» [ M.Ə.Rəsulzadə, 1916].

Bu yerdə səyyah Övliya Çələbinin səyahətnamələrində göstərilən fakt və rəqəmlərə müracət etmək istəyərdik. O yazırdı ki, 1640-cı ildə Azərbaycan torpaqlarından Təbriz və Şamaxıda 640 darül-təlimi, Şamaxıda 7, Təbrizdə isə 47-yə qədər məhşur mədrəsələr (akademik təhsil ocaqları) vardır [H.Əhmədov, 2006].

Bilirik ki, XVIII əsrə qədər həm dünyada, həm də Azərbaycanda təhsil ocaqları dini müəssisələrin nəzdində – məscid və kilsələrə bağlı olaraq təsis olunurdu. XVII əsrdə Azərbaycan torpaqlarında minillik yaşa malik yüzlərlə məscid məktəb və akademiyaların mövcudluğu artıq bu torpaqların sakinlərinin elm və mədəniyyətinin tarixini göstərir, eyni zamanda bu torpaqların həqiqi varisliyinin sübutu sayılır.

Mənfur qonşuların «istifadəçi» xarakterini, «daim özgə malından yararlanma» xüsusiyyətlərini, «oğurlayaraq varlanma» ideologiyasını göz önünə gətirən zaman qədim torpaqlarımız olan Qərbi Azərbaycanda erməni ruhani məktəblərinin təsis olunmasının 1740-cı illərdən başladığı M.Ə.Rəsulzadənin yazılarında sübut olunur. Bu faktın özü qədim Azərbaycan torpaqlarında — İrəvanda ermənilərin məskunlaşmasının XVIII əsrin sonlarına təsadüf etdiyini sübut edir. Böyük mütəfəkkirin bu təhlili günümüz üçün çox aktual sayılır.

7. **Ali mədrəseyi-ruhaniyyə** (Darülmüəllimin) — ruhani mollaların təhsili üçün arzu olunan ali təhsil ocağı.

Uşaqların və gənclərin təhsili ilə bərabər məktəb yaşı keçmiş əhalinin mədəni inkişafı üçün mollaların təhsilli olması vacib idi. Bu baxımdan xalqa daha yaxın olan mollaların təhsili və şəxsi keyfiyyətləri böyük əhəmiyyət daşıyırdı. Çar istilasından sonra Azərbaycan torpaqlarında mövcud olan təhsil ocaqları bütünlüklə dağıdılmış, ənənəvi məscid məktəb və mədrəsələri funksiyalarını itirərək xalqın inkişafına deyil, cahilləşməsinə səbəb olmağa başlamışdı. Bu qorxunc siyasətin əsasında isə ana dilində olan təhsilin tamamilə sıradan çıxarılması, şəriət dərslərinin belə ərəb dilində

[1] Naxçıvan Don — 1779-cü ildə Don çayının sağ sahilində salınaraq əvvəlcə Nor-Naxçıvan, sonra Naxçıvan-na-Donu, daha sonralar isə Proletarski adlandırılan şəhər.

keçirilməsi, məscid məktəblərinin əksəriyyətinə savadsızlığı, cahilliyi və mənəviyyatsızlığı ilə bilinən mollaların yerləşdirilməsi dururdu.

Bir əsrə yaxın davam edən bu məkrli siyasətin mahiyyətini və nəticəsini aydın görən M.Ə.Rəsulzadə yazırdı: «Şübhəsiz ki, yeni elmlərdən bəhrəsiz, dünya və aləmdən xəbərsiz olan bir molla yeni üsul məktəbləri özünə rəqib görür və xalq arasında köklənmiş avam fikirliləri tərvicinə ruhani bir zövq duyur. Ehtimal bunların arasında xəlqi olduğu bərbad halında saxlarkən ən səmimi düşünənləri və gördüyü işləri ən müqəddəs bir əmr sayanları da yox deyildir....İntihası köhnə sxolostik məktəb fəlsəfəsinə müəyyən aydınlanmış bir molla hardan bilsin ki, zaman artıq ölmüş, getmiş, qədim yunan filosofları ilə deyil, Kantların, Nisşelərin duyğu və düşüncələri ilə yaşamağa üz qoymuşdur».

8. **Maarif cəmiyyətləri** — təhsil uğrunda fəaliyyət göstərən qurumlar.

M.Ə.Rəsulzadə təhsil müəssisələri ilə yanaşı daim dövrün təhsil işlərini nizamlayan maarif cəmiyyətlərinin fəaliyyətini də nəzərə alırdı. Bakı şəhərində fəaliyyət göstərən beş maarif cəmiyyətinin — «Bakı cəmiyyəti-xeyriyyə», «Nəşri-maarif», «Nicat», «Səfa», «Səadət» — fəaliyyətinə toxunur, onları təhsildə məzmun və təlim üsullarına diqqət artırmağa çağırırdı. Mütəfəkkirin yazdığına görə, bu cəmiyyətlər, xüsusən də «Nəşri-maarif», «Nicat» cəmiyyətlərinin olduqca fəal və işıqlı bir tarixi vardır və onların əsas vəzifəsi oxumaq-oxutmaq işlərini nizama salmaq üçün maarif işləri yaymaqdır. Hətta «Nicat» cəmiyyəti vaxtı ilə Qafqaz müsəlman müəllimlər yığıncağını toplamaq kimi mühüm addımlar atmışdır. Bunun üçün cəmiyyət tərəfindən bir təşkilat komissiyası yaradılmışdır. Həmin komissiya tərəfindən 1906-1907-ci ildə, doktor Həsən bəyin sədrliyi və müəllim Fərhad bəy Ağayev cənablarının katibliyi ilə iki dəfə keçirilmiş olan Qafqasiya müsəlman müəllimlərinin yığıncağının Qafqaz müsəlmanlarının təhsillənmə yolundakı faydaları inkar oluna bilməz. Müsəlman məktəblərində oxunmaqda olan türkcə dərs kitabları və bu kitablarda nəzərə çatıdırılan üsul əsas etibarilə müəllimlər yığıncağının zəhmətlərinin nəticəsidir. Müəllimlər toplantısının faydası həmçinin təhsildə tərbiyə və təlimin üsul və məzmun cəhətdən işlənməsi və camaata çatdırılması baxımından da mühümdür. Çünki müəllimlər qədər xalqın ehtiyacını daim bilən və bələd olan ikinci bir sinif təsəvvür etmək mümkün deyil. Müəllimlərin yalnız uşaqlarla deyil, onların valideynləri ilə də daim görüşərək, dərdlərinə şərik olması hər kəs üçün aydındır və hər zaman bu əlaqə və münasibətdən istifadə etmək lazımdır [M.Ə.Rəsulzadə. 1916].

Əvvəlki müəllimlər yığıncağının katibliyini etmiş müəllim Fərhad bəy Ağayev cənablarının etdiyi məruzəyə görə 1906 və 1907-ci illərdə hazırlanan maddələr arasında – «müsəlman şagirdlərinin müəllimlər institutuna girmələri, Zaqafqasiya darülmüəlliminləri (seminariyaları) ilə edadi və ibtidai məktəblərində türkcə ilə şəriət dərsinin qüvvətləndirilməsi, Ağa Musa Nağıyevin ianəsi ilə Bakı realnı məktəbi çünbində müsəlman şagirdlərinə məxsus əlifba sinfinin açılması, Aleksandrın unas məktəbində müəllimlər kursunun açılması, «Nəşri-məarif» tərəfindən indiki halda bağlanmış olan müəllimlər kursunun açılması, «Nicat» tərəfindən təsis olunan gecə kursları və cümə məktəbləri, Zaqafqasiya məktəblərində 1881-ci il proqramının tamamilə tətbiq olunması, müsəlmanlardan da ibtidai məktəblər nazirinin (inspektoru) təyin olunması, ibtidai məktəblərdə (rus-müsəlman məktəbləri) dördüncü bir sinifin də açılması, bir çox türkcə tədrisinə məxsus kitabların nəşri kimi həyata keçənləri vardır. Lakin ərəb əlifbasının islahı, müsəlman şagirdlərindən ötrü tətil cədvəlinin tətbiqi, məscid məktəblərinin islahı, şəriət dərsi üçün dərs kitabları hazırlamaq, hər iki ildən bir müsəlman müəllimlər yığını yığmaq və müsəlman müəllimlərinin ümummüəllimlər ittifaqının yaradılması kimi tətbiqi mümkün olmayan maddələr də olmuşdur» [M.Ə.Rəsulzadə. 1915].

Əlbəttə, 7-8 ildən sonra Fərhad bəy cənablarının iki əvvəlki müəllimlər toplantısına aid

olan köhnəlmiş sənədləri saxlayaraq bu gün yığıncaqların keçmişinə, onun arzu və qərarlarına aid məlumat verməsi önəmlidir. Bunun sayəsində illər öncə verilmiş qərarların nə olduğu və bu günə qədər nələr edə bildiyimiz haqqında məlumat ala bildik. Bu gün dövlət dumasındakı vəkillərimizin vasitəsilə hökumətə bildirməlidirlər ki, reallaşdırıla bilinməyən maddələrlə yanaşı, edadi məktəblərdə proqramlar hazırlanarkən yerli dil (ana dili) və ədəbiyyatlara əhəmiyyət verilsin. Türkcə və şəriət dərsi icbari şəkildə keçilsin, müəllimlərin maaşı artırılaraq çalışılsın ki, sənətini bilən, şərəf və heysiyyatını saxlayan insanlar təyin olunsunlar.

M.Ə.Rəsulzadə Azərbaycanda fəaliyyət göstərən təhsil ocaqlarını milli tələblərə uyğun, milli amala xidmət edəcək ideyalar üzərində qurulmasının tərəfdarı idi. O yazırdı: «Millətlər üçün ən faydalı siyasət isə məktəblərin milliləşməsinə çalışmaqdır. Bu fikir yalnız millətpərəstlərin təəssüblərindən doğmayıb, ən hürr düşünən, elmi hər bir siyasət və politikaya müqəddəm tutan mütəxəssis müəllimlərin, pedaqoqların hökmü də bu yoldadır. Deməli ki, müsəlman balalarını tərbiyə edəcək xalq məktəbləri bu xəlqin (yəni müsəlmanların) ağıllı qismi tərəfindən başlanmaqda olan milli arzu və əməllərdə dəxi yardımçı olmalıdır» [M.Ə.Rəsulzadə. 1916].

Böyük publisistin təlimdə millilik və dövlətçilik baxımından tədrisində ana dilinin vacibliyini göstərən təhlilləri təkcə keçən əsrin əvvəlləri üçün deyil, bu gün üçün də aktual sayılır. Ona görə də ölkəmizdə əcnəbi dillərdə fəaliyyət göstərən təhsil müəssisələrində Azərbaycan dilinin tədrisinə xüsusi diqqət yetirilməsi, təhsilalanların milli mənsubluğundan və yaş səviyyəsindən asılı olamayaraq dövlət dilinin yüksək səviyyədə tədris olunmasına, həm şifahi, həm də yazılı nitqin bütün incəliklərinin öyrədilməsinə diqqət yetirilməsi tələblərinə əməl olunmalıdır.

Rəsulzadə yazırdı: «Məktəblərin vəzifəsi yalnız elm vermək deyil, həmçinin gənc nəsli milli ruhda, öz adət və ənənəsinə bələd və sadiq bir şəkildə, millətinə yad olmayacaq, yaşadığı mühitə biganə qalmayacaq insan kimi yetişdirmək olmalıdır. Mətbuata malik, maarif cəmiyyətlərinin və elmin üstün olduğu bir zamanda hər şey gözümüz qarşısındaykən biz zəmanə insanları bir nəsl öncə atalarımızın buraxdıqları səhvləri etmədən övladlarımızı yalnız elmli olsun deyib məktəbə göndərməməliyik, həm də düşünməliyik yetişən nəsl kökünə, dilinə, dininə, adət-ənənəsinə, milli düşüncəsinə özgələşmədən, tərbiyə və davranışlarında naqis kəslər olmadan yetişsinlər. Yoxsa ki, bu tip nəslin yetişməsi bizim övladlarımız üçün buraxacağımız ən böyük səhv, günah yükü olar» [M.Ə.Rəsulzadə. 1915].

Bu fikirləri oxuyan zaman dərk edirsən ki, müasir təhsil quruluşu etibarı ilə yalnız elm, inkişaf, təkmilləşmək, beynəlxalq rəqabət və tələblərə cavab vermək, müasir təlim üsulları, təlim prosesində yeni texnologiyalardan istifadənin tətbiqi və s. amillərdən ibarət deyildir. Dünya arenasına çıxa biləcək rəqabətqabilli təhsil, eyni zamanda mütləq şəkildə təhsilalanları millətinə sadiq, milli düşüncə və təfəkkürünə hörmətlə yanaşmağı bacaran insan kimi yetişdirməlidir.

Böyük vətənpərvərin bu ideyaları bütün dövrlər üçün aktualdır. Hər bir şəxsin aldıqları təhsil və dünyəvi biliklərlə kifayətlənməməli, bu bilikləri millətinin, ölkəsinin mənafeyinə, yararına uyğun istifadə etmə təfəkkürünə, bacarığına yiyələnməlidir.

### İstifadə edilmiş ədəbiyyat

1. Əhmədov H. Seçilmiş pedaqoji əsərləri. VII cild. Bakı, «Təhsil», 2006.
2. https://az.wikipedia.org/.../Azərbaycan_Xalq_Cümhuriyyəti
3. https://az.wikipedia.org/wiki/Azərbaycanda_təhsil
4. Rəsulzadə M.Ə. Ehtiyaclarımız, «Açıq söz», 9 oktyabr 1915, №6
5. Rəsulzadə M.Ə. Bakı darülmüəllimini münasibətilə, «İqbal», 3 aprel 1915, № 903

6. Rəsulzadə M.Ə. Bu işləri kim görsün?, «Açıq söz», 16 noyabr 1915, №36
7. Rəsulzadə M.Ə. Məktəb və mədrəsə, «Açıq söz», N-133, 134, 135, 138, 143, 147, 150, 201, 204, 205, 208, 15, 16,17, 21, 27, 31 mart, 4 aprel, 2, 6, 7, 10 iyun 1916.
8. Rəsulzadə M.Ə. Müəllimlər ictimai, «Açıq söz», 26 noyabr 1915, №45.
9. Rəsulzadə M.Ə. Yenə müəllimlər ictimai haqqində «Açıq söz»,15 dekabr 1915, №62.
10. Rəsulzadə M.Ə. Yenə darülmüəllimin haqqində, «İqbal», 15 aprel 1915, № 913.
11. Əliyev V. Qarabağ (Qədim dövr). Çaşıoğlu, 2010.
12. Çəmənzəminli Y. V. Seçilmiş əsərləri. I cild. Bakı, «Avrasiya press», 2005.